Ədalət.- 2021.- 17 iyul.- S.23.

# Şəhid xatirəsinə ehtiram

**Ölkəmizin hər yerində olduğu kimi Yasamal rayonunda da şəhid ailələri və qazilər dövlət qayğısını öz üzərlərində hiss edirlər. İkinci Qarabağ müharibəsi başa çatandan bu günə qədər rayonda şəhid ailələri və qazilərlə görüşlər mütəmadi davam etdirilir. Görüşlər zamanı belə ailələrin problemləri, məişət qayğıları öyrənilir, qaldırdıqları məsələlərin həlli istiqamətində müvafiq tədbirlər görülür, onlara əməli və hüquqi yardım göstərilir.**

Bu günlərdə Yasamal Rayon Gənclər və İdman İdarəsinin və 2 nömrəli Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin birgə təşkilatçılığı ilə keçirilmiş Vətən Müharibəsi iştirakçısı "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Füzuli rayonunun azad olunmasına görə" medalları ilə təltif olunmuş şəhid baş leytenant Natiq Baxşəliyevin xatirəsinə həsr edilmiş mini - futbol üzrə turnirin final oyunu və qaliblərin mükafatlandırma mərasimi təşkil edilmişdir.

Gənclərdən təşkil olunmuş "Dəmir yumruq" və "Fatehlər" komandaları arasında baş tutan gərgin final oyunu 5:3 hesabı ilə "Dəmir yumruq" komandasının qələbəsi ilə yekunlaşmışdı. Final oyunundan sonra qalib komandaların mükafatlandırılma mərasimi keçirilmişdir. Mərasimi Yasamal Rayon Gənclər və İdman İdarəsinin rəisi İlham Səfərov açıq elan etdikdən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Vətən Müharibəsində həlak olmuş şəhidlərin xatirəsi 1 dəqiqəlik sükutla yad edildi. İlham Səfərov öz çıxışında bildirdi ki, Vətən Müharibəsində Müzəffər Ordumuzun Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızın işğaldan azad olunmasında qəhrəmanlıq göstərmiş şəhidlərimizin xatirəsini yaşatmaq və yetişməkdə olan gənc nəslin nümayəndələri arasında təbliğ etmək məqsədilə təsdiq olunmuş xüsusi tədbirlər planına müvafiq olaraq, idarə tərəfindən bir sıra tədbirlər həyata keçirilməkdədir. 44 günlük Vətən müharibəsində qəhrəmanlıq nümayiş etdirmiş və şəhidlik zirvəsinə ucalmış oğullarımızdan biri də Natiq Baxşəliyevdir. Baş leytenant Natiq Baxşəliyev Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə ölümündən sonra medallarla təltif olunmuşdur. Tədbirdə millət vəkili Səbinə Xasayeva, Yasamal Rayon İcra Hakimiyyəti başçısının I müavini Hüseyn Əfəndiyev, Yasamal Rayon İcra Hakimiyyəti başçısı Aparatının Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Samir İsmiyev, 2 nömrəli Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman məktəbinin direktoru Əjdər Cəfərov, Yasamal rayon Ağsaqqallar Şurasının sədri Cavanşir Qurbanov, "Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri" İctimai Birliyinin Yasamal rayon Təşkilatının sədri Bəhram Şeydayev çıxış etmiş, Vətən müharibəsində əldə etdiyimiz tarixi qələbənin önəmindən, şəhidlərimizin xatirəsinin xalqımızın qəlbində daima yaşayacağından söz açmışlar.



**Sonda şəhid baş leytenant Natiq Baxşəliyevin atası Saleh Baxşəliyev çıxış edərək, Natiqin xatirəsinə həsr olunmuş turnirin təşkilatçılarına şəxsən öz adından və ailəsi adından minnətdarlığını bildirmiş, qalibləri təbrik edərək, onlara yeni-yeni ugurlar arzuladı. O Natiqin keçdiyi şərəfli döyüş yolundan söz açmış, gənclərə mərd və vətənpərvər olmağı, Vətənimiz Azərbaycanı canları qədər sevməyi arzulamışdı. Sonda xatirə şəkli çəkilmişdir.**

**Elşad Dağlı**
**"Cabir Novruz" Mədəniyyət Fondu mətbuat xidmətinin rəhbəri, AJB-nin üzvü**